İSSN 2218-7588
E- ISSN 2219-5513
İASJ 0000 0001

DİL

VƏ

ƏDƏBİYYAT

LANGUAAGE AND LİTERATURE **ЯЗЫК И ЛИТЕРАТУРА**

Beynəlxalq elmi –nəzəri jurnal

Elektron versiyası **Электронная версия**

1(121)

Jurnal
1993-cü ildən çıxır

– 2023 –

Sonaxanım Qurban qızı İmamova
Azərbaycan Texniki Universiteti "Humanitar fənnlər"kafedrası baş müəllim

RUSİYADA YAŞAYAN TÜRK XALQLARININ TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ, DİL VƏ MƏDƏNİYYƏTİ, ORXAN-YENİSEY ABİDƏLƏRİ

Giriş. Məqalənin yazılmaslnda əsas məqsəd Rusiyada həmçinin, dünyanın bir çox ərazilərində yaşayan türkdilli xalqların yaşayış tərzini, həyat və məişətini işıqlandırmaqdır. "Türk" sözünə ilk dəfə Bizans mənbələrində və VII əsrin "Orhon-Yenisey" abidələrində rast gəlinir. Qədim Çin mənbələri türk tayfalarının II minillikdən mövcudluğu haqqında məlumat vermişdir. Türk sivilizasiyası Avropa və Asiya xalqlarına yaxınlaşmış, özündə onların bəzi xüsusiyyətlərini birləşdirmişdir. Bu proses müasir türk xalqlarının zahiri görünüşündə, din, dil, mədəniyyət və iqtisadiyyatında da öz əksini tapır.

Əhalisi. Aparılan statistik məlumata görə, dünyada türk xalqlarının sayı 280 milyondan çoxdur. Türklərin ümumi sayı müstəqil türk dövlətlərində 170 milyona qədərdir. 50 milyon nəfərə yaxını isə Rusiya və Çin ərazisində yaşayır. 80 milyondan çox türk isə dünyanın müxtəlif ölkələrində məskunlaşmışdır. Türk dünyasında təbii artımın orta göstəricisi 2%-ə yaxındır.

Yaşayış məskəni. Türklərin ana vətəni Mərkəzi Asiya hesab olunur. Tarixən Türklər miqrasiya edən xalqlar olmuşlar. VII əsrdən başlayaraq üç istiqamətdə – Şimali-Şərqi Asiya, Ural dağları və Qərb tərəfə köç etmişlər. Əhalinin sürətli artımı, heyvandarlıq üçün əlverişli yerlərin axtarılması, varisliklə bağlı hakimiyyətdə olmayanların boş ərazilərdə yeni dövlətlər qurması (Şato, Tavqas və s.), iqlim dəyişiklikləri (Böyük hun köçü), daha güclü dövlətlərin təzyiqi altında köçüb getmə (Çin dövlətinin güclənməsi ilə "Tyuku" (türk) dövlətinin iki yerə parçalanması və köç etməsi), yeni ölkələrin zəbt edilməsi türk xalqlarının geniş ərazilərdə yayılmasına səbəb olmuşdur. XX əsrdə də məcburi miqrasiyalar (krım tatarları, axıska türkləri, azərbaycanlılar) olmuş və son vaxtlar yüksək həyat mövcuddur. Türklərin "Böyük çöl"də məskunlaşması onların həyat tərzinə güclü təsir etmişdir. Müvəqqəti köçlər zamanı onlar rahat açılıb-yığılan alaçıq (çadır) və yurtalardan istifadə edir, əsasən, heyvandarlıqla məşğul olmuşlar. Apardığımız araşdırmalara görə, Türklərin yerdəyişməsi tarixi mənbələrdə "Xalqların böyük köçü" adlanır. Bu nəhəng miqrasiya eramızın II əsrindən başlayaraq 300 ildən çox davam etmişdir. V-VI əsrlərdə türklər Altay dağlarından Avropaya qədər yayılaraq Şərq, Qərb, Slavyanpravoslav sivilizasiyalarının qovuşduğu ərazilərdə məskunlaşmışdılar. Türklər məskunlaşdığı ərazilərə əvvəlki yurdlarının izlərini apardılar. Rusiyada və Mərkəzi Asiyada təkrarlanan coğrafi adlar bunu sübut edir. Hazırda türk xalqları əlverişli-coğrafi mövqeyə malik olan Ön Asiya, Mərkəzi Asiya, Qafqaz regionları, Kiçik Asiya yarımadası, Sayan-Altay dağlarının şimal-qərb bölgəsi, Talas vadisi, Ordos vilayəti, Orxon-Yenisey ətrafı ərazilər, Urmiya gölü hövzəsi, Qara dəniz sahili ərazilərində məskunlaşmışlar Aparılan tədqiqat işi onu göstərir ki, hal-hazırda Türk xalqlarının 7 müstəqil dövləti vardır: Azərbaycan, Türkiyə: Qazaxıstan, Qırğızıstan, Trkmənistan, Özbəkistan, və Şimali Kipr respublikası.Türk dünyası ölkələrinin hamısı, demək olar ki, çoxmillətlidir. Türklər həmçinin, Asiya qitəsində Əfqanıstanda (əfşarlar, qızılbaşlar və s.), İraqda (türkmənlər), Suriyada (əsasən Türkiyə ilə sərhəddə), Gürcüstan və İranda (Azərbaycan türkləri) yaşayırlar. Avropa qitəsində isə türklər Bolqarıstanda (bolqar, Krım tatarları), Litvada (karaimlər) və Rusiyada yaşayırlar. Çin Xalq Respublikasının tərkibində isə Sintzyan-Uyğur Muxtar Rayonu, Moldovanın tərkibində yerləşən Qaqauziya Muxtar Respublikası vardır. Tarixin müxtəlif mərhələlərində bəzi türk dövlətləri Rusiyadageniş ərazilər tutmuş, Rusiyanın şimal hissəsini fəth etmişlər. Türk xalqlarının bəziləri müstəqil dövlət qurmuş, bəziləri müəyyən dövlət daxilində muxtar qurumlar yaratmış, bəziləri isə heç bir özünüidarə hüququna da malik deyil və müxtəlif dövlətlərin ərazilərində yerləşmişdir. Məsələn, onlardan bir neçəsi Asiyada Əfqanıstan, İran, İraq, Suriya, Avropada Bolqarıstan, RumıniyaYunanıstan, Ukrayna, Moldova, Gürcüstan, Rusiya və s. ölkələrdə yaşayırlar. Belə türk xalqlarına qumıqlar, krım tatarları, qaraçaylar, şahsevənlər, türkmənlər, sibir tatarları, bolqar türkləri, əfşarlar və sairə aiddir. Bu xalqların çoxu gəlmə xalqlar içərisində assimilyasiya olunmaqdadırlar. Bunlardan başqa aşağıdakıı xalqları da əlavə edərsək durumun nə yerdə olduğu açıq şəkildə gözlər önünə sərilir. Rusiya Federasiyasında, Sibirdə ruslaşmış türklər yaşayırlar.Həmçinin Rusiya Federasiyasın digər ərazilərində, məs: **Ob (qədim-adı Ümer tatarları**); (tağabitlər, kalmaklar, şağarlar, oroslar, çaldonlar, kulundinlər, kumuçlar, tuğullar, itiberlər və s.) Tur tatarları (kurlaklar, qumruqlar və s.) Verxoyon tatarları, çuvanlar anadurlar yaşayırlar. Rusiya Federasiyasının Şərqi Avropa düzənliyində ruslaşmış Türk xalqları, məs: sayanlar, çukanlar, kara muşlar və s. yaşayırlar. **Türk dilləri:** Mahmud Kaşğarinin 11-ci əsrdə yazdığı "Divanü Lüğat-it-Türk" (Türk dilləri Sözlüyü) adlı kitabında ilk dəfə olaraq türk dilinin sözlüyündə lüğətin əhəmiyyətindən danışmışdır (1, s. 127-130). Rusiyada yaşayan türk xalqları dünya dillərinin təsnifatına görə Altay dil qrupuna məxsusdular. Dil və mənşə fərqinə görə onlar dörd qola bölünürlər: 1. Oğuzlar – Azərbaycan türkləri (türkmanlar, Xorasan türkləri, Qaşqaylar və s. kimi qolları vardır), Anadolu türkləri, qaqauzlar, türkmənlər, axısqa türkləri, krım tatarları, türkmanlar, Xorasan türkləri və s. 2. Uyğurlar – özbəklər, həzaralar, salarlar, uyğurlar, tuvalar, şorlar, komasin-tobollar, baraba tatarları, çulumlar və s. 3. Qıpçaqlar – qazaxlar, qaraqalpaqlar, qumıqlar, qırğızlar, altaylar, noqaylar və s. 4. Bulqarlar – tatarlar, başqırdlar, qaraçaylılar, qaraimlər və s.

Türklərdə din anlayışı: Rusiyada yşayan Türk xalqlarının inanclarında tanrı əsas yer tutar. VII əsrdən etibarən İslam dininə inanc daha çoxdur (hazırda təxminən 80%). İndiki dövrdə qeyri müsəlman- yakutlar (şaman və xristian), cuvaş və qaqauzlar (xristian), karaim və krımçaklar isə (yəhudi dini)nə sitayiş edirlər. Türk xalqlarının ədəbiyyat və incəsənəti. Ədəbiyyat: Türk xalqları ədəbiyyatının 5 min ildən çox tarixi var. Bu xalqların tarix və ədəbiyyatını əks etdirən mənbələr yaddaşlara, ağızdan-ağıza keçən xalq yaradıcılığı ilə bağlıdır.Azərbaycan alimi Elman Quliyev: (Türkiyə və Türk ədəbiyyatı XIX əsrlər) Türkiyə cumhuriyyətinin 80 illiyinə həsr olunmuş konfransda çıxış edərək demişdir:" Bu mənbələr

türklərin əsrlərdən bəri yaratdığını qoruyub saxlamışdır. Hun türklərinin "Oğuz xaqan", göytürklərin "Boz qurd", uyğur türklərinin "Köç" dastanları islama qədər yayılmışdır. Islamdan sonra Qaraxanlı türkləri "Satuq Buğra xan", Azərbaycan türkləri "Kitabi Dədə Qorqud", qırğızlar "Manas" dastanlarını yaratmışlar. Dil ümumiliyi, el sənətləri, tarixi-coğrafi məkan, şifahi xalq ədəbiyyatı adət-ənənələr, oxşar toponimlər türk xalqlarını birləşdirən ümumi oxşar xüsusiyyətlərdir. IX əsrdə yaşamış Aprincur Tikin adlı uyğur şairinin iki şeiri bizə gəlib çatmışdır" (2, s. 115-120). Qaraxanlı dövlətinin görkəmli mütəfəkkiri Yusif Balasaqunlu "Kutadqu bilik" ("Xoşbəxtlik bəxş edən elm») əsərini 1069-cu ildə yazmışdır. Əsər Qaraxanlı hökmdarı Buğra Qara xana həsr edilmişdir. Şairə görə, elm işıq, alim isə məşəldir. Öz dövrünün müdrik şairi Əhməd Yasəvi "Həqiqətlər heybəsi" adlı əsərində biliyə, humanizmə geniş yer vermişdir. Qaraxanlı hökmdarı Satuk Uğra xanın 10-cu əsrdə İslam dinini qəbul etməsindən sonra türk dünyası yeni bir mədəniyyət mühitinə daxil olmağa başladı. Qərbə köç edən türk tayfaları bu mədəniyyətin təsirlərini ədəbiyyat dünyasına da gətirdilər. Mahmud Qaşqarlı "Divani Lüğətit Türkü" ərəblərə türkcə öyrətmək məqsədi ilə hazırladı. Yusif Has Hacib İslam ölkələrini ehtiva edən bir dövlət fəlsəfəsini Kutadqu Bilik (11-ci əsr) adlı əsərində işləyib hazırladı. Əlişir Nəvai cığatayca zəngin bir mədəni və sənət dili yaratdı. Anadoluya gələn türk tayfaları burada yeni bir ədəbiyyat ənənəsinin formalaşmasında böyük rol oynadılar. Anadoluda ilk nümunələrini 13-cü əsrdən başlayaraq yarandığı qəbul edilən bu ədəbiyyat ənənəsi iki sahədə inkişaf etdirmiş və "divan ədəbiyyatı" və "xalq ədəbiyyatı" qollarını yaratmışdır.Aşıq deyilən xalq ozanları adətən sazları ilə Anadolunu gəzərək həm bir ənənə yaratmış, həm də populyar olmağa çalışmışdılar. Qaracaoğlan, Aşıq Ömər, Gövhəri, Dərdli,Köçəri türk aşıqları o dövrdə köçəri, yarımköçəri və qismən də oturaq həyat tərzi sürmüşlər. Bütövlükdə Pənah Xəlilov: "Türk xalqları ədəbiyyatı", "Qədim türk dastanları haqqında məlumat" yazısında qeyd edir: "XIX əsrdən miras qalmış konsepsiyaya görə yalnız oturaq xalqlar mütərəqqi sivilizasiya yaratmışlar. Türklər kimi köçəri xalqların yaşadıqları ərazilərdə durğunluq hökm sürmüşdür. Bu konsepsiyanın ən pis tərəfi onun mübahisəsiz elmi nəticə kimi təqdim olunması idi. Təəsüf ki, XX əsrdə bu konsepsiya öz aktuallığını itirdi" (3, s. 49-51). İncəsənət. Türk xalqlarında memarlıq da inkişaf etmişdir. Türküstan ərazisində zəngin, müdafiə divarlarının hündürlüyü 20 metr olan şəhərlər var idi. Türk dövlətlərinin sərhədlərində müdafiə qalaları, keşikçi qüllələri tikilirdi. Göytürklər öz xaqanlarının şərəfinə böngüdaşlar adlandırılan heykəllər qoyurdular. Bunlardan ən möhtəşəmi Bilqə xaqana, Gül Tikinə, Ulu Bazar məscidi, ikinci Mahmud türbəsi, Hindistana yürüş zamanı əldə edilmiş qənimət hesabına tikilmiş zəfər abidələri Qəznəvilərin memarlığa qayğısını göstərir. İslamdan əvvəl türklərdə rəssamlıq və heykəltəraşlıq da inkişaf etmişdir. Türk xalqlarında yazı olmadığı bir vaxtda "ozan", "akın", "Baksı", "Saman" adlanan musiqiçilər sazın müşayiəti ilə dastanlar söyləyirdilər. Dastanlarda türklərin ilk musiqi aləti qopuzdan daha çox danışılır. VIII əsrlərdə yaşamış Yulluq Tikinin qoşduğu və Orxon abidələri vasitəsi ilə bizə çatmış mahnısı türk musiqisinin inkişafını göstərir. Türk xalqlarında elm. Erkən orta əsrlərdə türk xalqlarının əsas elmi mərkəzləri Mərkəzi Asiyada Ürgənc, Mərv, Buxara, Səmərqənd, Xarəzm şəhərləri idi. Qəznəli sultan Mahmudun sarayında 400 alim və şair çalışırdı. Mərvdə 10 kitabxana var idi. Bu şəhərlərdə İbn Sina, Fərabi, Biruni, Yusif Balasaqunlu, Mahmud Qaşqari və b. alimlər çalışmışlar. Əbu Əli İbn Sina (980-1037) görkəmli alim, həkim, şair idi. O Mərkəzi Asiya və İranda yaşamış, 5 cilddən ibarət "Tibb ensiklopediyası" və "Tibb elminin qanunu" əsərlərini yazmışdı. Onun kitabları başqa dillərə tərcümə olunmuşdur. Avropada "Avitsenna" kimi tanınır. Azərbaycan filosofu Bəhmənyarın müəllimi olmuşdur. Görkəmli alim Fərabi (870-950) Aristoteldən sonra ikinci müəllim fəxri adına layiq görülmüşdür. Aristoteldən sonra elmlərin təsnifatını vermiş ikinci alimdir. Əbu Reyhan əl Biruni (973-1048) müxtəlif elm sahələri ilə məşğul olmuşdur. O, kəndlərin, şəhərlərin və digər coğrafi obyektlərin yerini dəqiq müəyyən etmək üçün diametri təqribən 5 metrə yaxın olan ilk qlobus düzəltmişdi. Biruni türk xalqlarının yaşadığı ərazilər, onların adət-ənənə və mərasimləri haqqında maraqlı məlumatlar vermişdir. O, Hind dənizi ilə Qərb dənizi, yəni Hind okeanı ilə Atlantik okeanının Afrikadan cənubda dar bir boğaz vasitəsilə birləşdiyini söyləmişdi. Əbu Reyhan əl Biruni (973-1048) "Hindistan"adlı əsəri. "Hindistan" adlı əsərində ilk dəfə yerin günəş ətrafında fırlanması ideyasını irəli sürmüş,hind astronomu Brahmaquptanın "Yer hərəkətdə, göylər isə sükunətdədir" fikrini əsaslandırmışdır. Onun "Astronomiya və ulduzlara dair Məsud cədvəli" əsərində riyaziyyat, astronomiya, coğrafiyaya dair dərin elmi biliklər öz əksini tapmışdır. Biruni Azərbaycanın Bakı, Dərbənd, Təbriz, Ərdəbil və digər şəhərlərinin olduğu yerin en və uzunluq barədə məlumat vermişdir (4, s. 154-160). Türk xalqlarında təhsil - Erkən orta əsrlərdə türk xalqları müxtəlif yazı növlərindən istifadə etmişlər. Bu isə türklərdə məktəb və mədrəsələrin olduğunu göstərir. Məscid yanında təşkil edilmiş məktəblər, mədrəsələrdən fərqli olaraq ibtidai təhsil verirdi. Mərkəzi Asiyadakı Səmərqənd, Buxara, Xarəzm, Mərv şəhərlərində mədrəsələr var idi.

Nəticə. Orxon-Yenisey abidələri türk xalqlarına məxsus yazılı mənbədir. Bu abidənin adı ilk dəfə XII əsr tarixçisi Əlaəddin Ata Məlikin "Cüveyni-tarixi-cahangüşə" əsərində çəkilir. Orxon-Yenisey abidələrinin mövcudluğu uzun müddət Avropa ölkələrində və Rusiyada məlum olmamışdı. Onları ilk dəfə XVIII əsrin əvvəllərində Rusiya ilə İsveç arasında baş vermiş müharibədə Poltava döyüşündə əsir düşmüş İsveç zabiti Filipp Starlenberq üzə çıxarmışdı. 0,13 il Sibirdə Tobol əyalətində yaşamış, həmin ərazinin keçmiş xalqları haqqında materiallar toplamış, həm də Orxon-Yenisey abidələrinin üzünü çıxarmış və vətənində dərc etdirmişdi. Bundan sonra bu abidələrə Rusiya və Danimarkada maraq yaranmışdı. Danimarka alimi Vilhelm Tomson 1893-cü ildə Orxon-Yenisey abidələrinin türklərə məxsus olduğunu sübut etmişdi. Rus alimi V.Radlov bu abidə haqqında çoxcildli kitab yazmışdır.Orxon-Yenisey abidələri V-VIII əsrlərə aiddir, Göytürklərə məxsusdur. Əlifba 38 hərfdən ibarətdir. Onun 34-dü samit, 4-dü saitdir. Yuxarıdan aşağıya doğru yazılır. Bu abidələrin bir hissəsi Şimali Monqolustanda Orxon çay vadisində tapılmış və" Orxon abidələri" adlanır. 725-735-ci illərdə tikilən Orxon abidələrinin sayı 13 ədəddir. Onların ən məşhuru Göytürk xaqanı Bilgə xaqan, onun qardaşı Gül Tigin və baş vəzir Tonyukuk üçün qoyulmuşdur.

İstifadə edilmiş ədəbiyyat
1. Mahmud Kaşğari nin 11-ci əsrdə yazdığı "Divanü Lüğat-it-Türk" (Türk dilləri Sözlüyü) adlı kitabı. s. 127-130.
2. Elman Quliyev "Türkiyə və Türk ədəbiyyatı" XIX Əsrlər. Türkiyə cumhuriyyətinin 80 illiyinə həsr olunmuşdur. səh: 115-120.
3. Pənah Xəlilov: "Türk xalqları ədəbiyyatı" Qədim türk dastanları haqqında məlumat. Bakı. 1986 il. səh: 49-51.
4. Əbu Reyhan əl Biruni (973-1048) "Hindistan"adlı əsəri. səh: 154-160.

Açar sözlər: türk alqları, elm və mədəniyyət, incəsənət, ədəbiyyat
Key words: Turkic peoples, science and culture, art, literature
Ключевые слова: тюркские народы, наука и культура, искусство, литература

Резюме

Основная цель написания статьи - пролить свет на быт, быт и быт тюркоязычных народов, проживающих в России и во многих районах мира. Слово «тюрк» впервые встречается в византийских источниках и в «орхонско-енисейских» памятниках VII века. Древние китайские источники давали сведения о существовании тюркских племен со 2-го тысячелетия до нашей эры. Турецкая цивилизация сблизилась с европейскими и азиатскими народами и объединила в себе некоторые их черты. Этот процесс находит отражение во внешнем виде, религии, языке, культуре и экономике современного турецкого народа.

Summary

The main goal of writing the article is to shed light on the way of life, life and everyday life of Turkic-speaking peoples living in Russia and in many areas of the world. The word "Turk" is found for the first time in Byzantine sources and in the "Orhon-Yenisei" monuments of the 7th century. Ancient Chinese sources gave information about the existence of Turkic tribes from the 2nd millennium. The Turkish civilization approached European and Asian peoples and combined some of their characteristics. This process is reflected in the appearance, religion, language, culture and economy of the modern Turkish people.

Rəyçi: Dos. S.Abbasova